# İbtidai sinif müəllimləri üçün tes

Təlimat

İmtahan testinin elektron bukleti qarşınızdadır.

Test iki hissədən ibarətdir - fənn bilikləri və akademik bacarıqlar.

Testin maksimal balı 65-dir.

Testdə təqdim olunan tapşırıqlar format baxımından müxtəlifdir. Hər bir tapşırığın təlimatını diqqətlə oxuyun, sizdən nə tələb olunduğunu yaxşı dərk edin və sonra cavabı seçin və ya yazın.

**Nəzərə alın:**

- gər düzgün cavabla birlikdə səhv cavabı da qeyd etsəniz, siz bal ala bilməyəcəksiniz.
- Azərbaycan dili və ədəbiyyatı fənnindən tapşırıqları cavablandırarkən müasir azərbaycan ədəbi dilinin normalarını pozsanız, balınızdan kəsiləcək.

**Test üzərində işləmək üçün sizə 4 saat vaxt veriləcək.**

**Sizə uğurlar arzu edirik!**

# Fənn biliyi

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

# Azərbaycan dili və ədəbiyyatı

(1) **1. Hansı sözün yazılışı düzgündür?**

ა) dəvə-dabanı

ბ) sıxmaboğma

გ) xırdabuynuz

დ) lütf-kar

(1) **2. “Qələm” sözü hansı cümlədə mənsubiyyət şəkilçisi qəbul etmişdir?**

ა) Qələmi bizə, demək olar ki, qənim kəsilib.

ბ) Qələmi ədalət və haqq yolunda işlət.

გ) Qələmi mənə ver.

დ) Qələmi sabah qaytararsan.

(1) **3. Hansı cümlədə “o” əvəzliyindən sonra vergül qoyulmalıdır?**

ა) O tərəfdə dayan.

ბ) O yaxşı yoldaşdır.

გ) O ki səni tanımır.

დ) O da belə düşünür.

(6) **4. Aşağıdakı cümlələrdə morfoloji və sintaktik səhvlərə yol verilmişdir. Səhvləri tapın, düzgün formada qeyd edin. Müəllim nəyi bilməlidir ki, bənzər səhvə yol verməsin?**

*Qeyd edək ki, düzgün yazılmış sözü səhv formada dəyişsəniz, xal itirəcəksiniz.*

Sinifə beş nəfər yeni şagird daxil olmuşdular. Onların əyinində məktəbli forması, çiynində yeni çanta var idi. Onlardan biri Əhməd müəllimin oğlu idi. Artıq sinifdə xeyli uşaq olmuşdu. Buna baxmayaraq, onlar müəllimləri yaxşı dinləyirdilər, oxuyur və yazırdılar.

(2) **5. Cümlədə hansı səhvə yol verilmişdir? İzah edin. Müəllim nəyi bilməlidir ki, bənzər səhvə yol verməsin?**

*Göyə qalxdı təyyarəmiz qartal kimi vüqarla.*

**6. Şifahi xalq ədəbiyyatı nümunəsi** olan **"Təmənnasız yaxşılıq" əfsanəsini oxuyun və 6.1. - 6.4. tapşırıqlarını yerinə yetirin.**

TƏMƏNNASIZ YAXŞILIQ

Qoca bir əkinçi tarlada işləyən zaman gördü ki, bir quzğun caynağına aldığı hacıleyləyi yuxarıdan buraxıb daşa çırpdı. Quzğun leyləyin üstünə bir də şığımaq istədi. Ancaq ona qədər qoca özünü hacıleyləyə çatdırdı. Quzğun qocanı görüb havada bir neçə dövrə vurdu və uçub getdi. Qoca baxdı ki, leyləyin qanadı və qıçı qırılıb. Axşam evə dönəndə hacıleyləyi də özü ilə gətirdi. Bir müddət onu müalicə etdi. Hacıleyləyin qanadı və qıçı sapsağlam oldu. Qoca əkinçi buna çox sevindi. O, hacıleyləyi gətirib çölə buraxdı.

Aradan xeyli keçdi. Qoca əkinçi şuma toxum səpirdi. Bir də gördü ki, budur ha, hacıleylək gəldi, onun başı üstündə çırpınıb qanad çaldı. Axırda da ağzından yerə bir neçə toxum salıb getdi. Qoca bildi ki, bu, xeyirliyədir. Toxumları səliqə ilə torpağa basdırdı. Vaxt-vədə gəlib çatdı. Bu toxumdan iri qarpızlar əmələ gəldi. Qoca qarpızlardan birini kəsdi. Baxdı ki, içindən qızıl tökülür. Sevincək qarpızları yığıb evə apardı.

Bu xəbər ölkənin padşahına çatdı. Hökmdar əkinçini hüzuruna çağırdı. Ondan bu məsələnin sirrini soruşdu.

Qoca əkinçi çarəsiz qalıb hacıleylək əhvalatını danışdı.

Şah əmr edib dedi:

– Hər necə olur-olsun, həmin hacıleyləyi mənə gətirərsən.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39

Ağır cəzadan qorxan qoca əkinçi tor düzəltdi, tələ qurdu, çox çətinliklə hacıleyləyi tutub şaha gətirdi. Şah əmr elədi ki, hacıleyləyin qanadının birini və bir qıçını sındırsınlar. Sonra şah quşa xüsusi bir yer ayırdı. Onu böyük bir qayğı ilə sağaltmağa başladı. Quşu sağaltdıqdan sonra onu öz əlləri üstə alıb havaya uçurdu. Hacıleylək bir an içərisində uçub görünməz oldu, çox-çox uzaqlara uçdu.  Şah hər gün pəncərənin qabağında durub quşun yolunu gözləyirdi. Quş, həqiqətən, bir səhər geri qayıtdı və ağzında bir neçə toxum gətirdi.

Şahın adamları quşun güllü bağçaya atdığı toxumları bir-bir yerdən yığdılar. Şahın əmri ilə bağçanı tərtəmiz etdilər. Qızılgül kollarını çıxarıb bir kənara atdılar. Əvəzində torpağa quşun gətirdiyi toxumları əkdilər. Bir neçə gündən sonra bağçanı qaratikan kolu ağzına  götürdü. Qaratikanı nə qədər qoparıb atdılar, kökünü kəsə bilmədilər.

Şah elə bildi ki, qoca əkinçi onu aldadıb, başqa hacıleyləyi gətirib. İstədi, onu çağırıb boynunu vurdursun. Bu vaxt şahın müdrik vəziri ona dedi:

– Şahım sağ olsun. Qocanın burada günahı yoxdur. Quş elə həmin quşdur. Amma qoca əkinçinin ona etdiyi yaxşılıq təmənnasız, səninki isə təmənnalı yaxşılıq idi. Bunu bilən quş hər kəsə öz payını çatdırıb.

**6.1. – 6.2. tapşırıqların şərtləri ilə tanış olun və hər bir sualın təxmini cavablarından mətnə əsasən düzgün olan variantı seçin.**

(1) **6.1. Xüsusiyyətlərdən hansını şaha aid etmək olar?**

ა) O, xeyirxah və qayğıkeş insan idi.

ბ) Xalqına zülm edən və acgöz  insan idi.

გ) Ağıllı və müdrik adamlara qiymət verən insan idi.

დ) Səbirsiz və xudpəsənd insan idi.

(1) **6.2. Verilən atalar sözlərindən hansı mətnin ideyasına *uyğun deyil*?**

ა) Nə tökərsən aşına,
O da çıxar qaşığına.

ბ) Əl tutanın əlini tutarlar.

გ) Yaxşılıq yerdə qalmaz.

დ) Yaxşı olsa, ağadan,
Pis olsa, nökərdəndir.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

**6.3. - 6.4. tapşırıqlarının şərtlərini diqqətlə oxuyun. Fikrinizi aydın, yığcam və əsaslandırılmış şəkildə təqdim edin. Əsaslandırılmış mülahizə məntiq baxımından formalaşmış və ədəbi dil normaları əsasında tərtib olunmalıdır.**

(2) **6.3. "Qızılgül kollarını çıxarıb bir kənara atdılar, əvəzində torpağa quşun gətirdiyi toxumları əkdilər"** cümləsi ilə aydın olur ki;

(2) **6.4. Vəzirin dediyi: "Bunu bilən quş hər kəsə öz payını çatdırıb." cümləsində nə nəzərdə tutulmuşdur və ümumiyyətlə,** ***təmənnasız yaxşılıq*** necə olmalıdır**?**

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39

**7. Cabir Novruzun "Sağlığında qiymət verin insanlara" şeirini oxuyun, 7.1. və 7.2. tapşırıqlarını yerinə yetirin.**

Bir arzum var, ay adamlar, qoyun deyim,
Sağlığında qiymət verin insanlara,
Yaxşılara sağlığında yaxşı deyin,
Sağlığında yaman deyin yamanlara.
Yalnız, yalnız sağ olanda,
Hər kəs əsl qiymətini bilər onda,

Bu sözlərim düz olmasa töhmət edin.
Sizdən rica eləyirəm milyon kərə,
Şairlərə sağlığında hörmət edin,
Sağlığında heykəl qoyun ölməzlərə…
Gələcəyə çox da ümid bağlamayın,
Sözünüzü sonralara saxlamayın.

**(2) 7.1. Müəllifin "sağlığında" sözünü bir neçə dəfə işlətməkdə məqsədi nədir və bu sözün hansı bədii ifadə vasitəsi olduğunu aydınlaşdırın.**

**(2) 7.2. Müəllifin əsas fikrinin nə olduğu haqqında mülahizə yürüdün; Şeirdəki əsas problemi ümumiləşdirin.**

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

# Riyaziyyat

(1) **8.** Avtobusda bir neçə sərnişin var idi. Birinci dayanacaqdan sonra sərnişinlərin sayı ikiqat artdı, ikinci dayanacaqdan sonra 5 vahid azaldı, üçüncü dayanacaqdan sonra yenə ikiqat artdı, dördüncü dayanacaqdan sonra isə 6 vahid azaldı. Bundan sonra artıq avtobusda sərnişin qalmadı. İlk anda avtobusda neçə sərnişin olub?

ა) 4

ბ) 5

გ) 6

დ) 7

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **9.** $B$ 12-nin, $C$ 24-ün bölənlər çoxluğunu təşkil edir və $B \cup C$ isə bu çoxluqların birləşməsidir. $B \cup C$ çoxluğunun elementlərinin sayını tapın.

ა) 8
ბ) 10
გ) 12
დ) 14

(1) **10.** $A$ nöqtəsi $x$ oxuna nəzərən $B(4;\ -3)$ nöqtəsinə simmetrikdir, $C$ nöqtəsi isə $y$ oxuna nəzərən $A$ nöqtəsinə simmetrikdir. $C$ nöqtəsinin koordinatlarının cəmi nəyə bərabərdir?

ა) $(-2)$-yə;

ბ) $(-1)$-ə;

გ) 2-yə;

დ) 1-ə.

(1) **11.** $m$ ədədi 6-nın misli olan natural ədəddir, $n$ isə 3-ün misli **olmayan** cüt natural ədəddir. Sadalanan ifadələrdən hansının qiyməti 6-nın mislidir?

ა) $2(m+n)+3(4m+n)$

ბ) $(4m+3n)+2(3m+4n)$

გ) $6(3m+n)+5(2m+n)$

დ) $3(4m+n)+2(m+3n)$

(1) **12.** Hər birindən bir ədəd olmaqla yalnız 3, 5, 7 kiloqramlıq çəki daşları var. Bu çəki daşlarını istifadə edərək aşağıdakı neçə kiloqramlıq əşyanı boşqablı tərəzidə çəkə **bilmərik**?

ა) 1

ბ) 2

გ) 6

დ) 9

(1) **13.** Verilmiş üç ədəddən birinci ədəd ikinci ədədin $\frac{1}{3}$ hissəsinə, ikinci ədəd isə üçüncü ədədin $\frac{1}{2}$ hissəsinə bərabərdir. Üçüncü ədəd bu ədədlərin cəminin hansı hissəsini təşkil edir?

ა) $\frac{2}{3}$

ბ) $\frac{3}{4}$

გ) $\frac{3}{5}$

დ) $\frac{4}{5}$

## Məlumatların təhlili

Diaqramda mayın 12-dən 18-i də daxil olmaqla su anbarına nə qədər suyun töküldüyü və bu su anbarından istehlakçılara gündəlik nə qədər suyun verildiyi göstərilmişdir.




*Növbəti iki suala bu diaqram əsasında cavab verin.*


Suallara keçid: 14 15

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **14.** Sadalanan günlərin hansında əvvəlki günlə müqayisədə həm anbara axan suyun miqdarı, həm də istehlakçıya verilən suyun miqdarı azalıb?

ა) Mayın 13-də;

ბ) Mayın 14-də;

გ) Mayın 15-də;

დ) Mayın 16-da.

Diaqrama baxmaq

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **15**. Əgər mayın 12-si günün sonunda anbarda suyun miqdarı 16 min $m^3$-ə bərabər idisə, mayın 13-ü günün sonunda anbarda neçə min $m^3$ su var idi?

ა) 11

ბ) 12

გ) 13

დ) 14

(1) **16.** Tea, Lika, İa və Salome bacıdırlar.

İki müddəa verilmişdir:

I. Bacılardan ən az biri ölkə xaricində olub.
II. Bacılardan ən az biri ölkə xaricində olmayıb.

*Aşağıda sadalananlardan hansı **<u>mümkün deyil</u>**?*

ა) Hər iki müddəa səhvdir;

ბ) Hər iki müddəa doğrudur;

გ) Birinci müddəa səhv, ikinci isə doğrudur;

დ) Birinci müddəa doğru, ikinci isə səhvdir.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **17.** Əgər $x$ ədədi $y$ ədədindən 2 dəfə çoxdursa, onda $(7x - 4y)$ ədədi $(3x - y)$ ədədindən neçə dəfə çoxdur?

ა) 2

ბ) 3

გ) 4

დ) 5

(1) **18.** Kubun həcmi  8 $sm^3$-dir. Bu kubun səthinin sahəsi nəyə bərabərdir?

ა) 18 $sm^2$-ə;

ბ) 24 $sm^2$-ə;

გ) 30 $sm^2$-ə;

დ) 36 $sm^2$-ə.

(1) **19.** Turist üç saat ərzində hərəkət edirdi. Birinci saat ərzində o, gedilən yolun üçdə birini, ikinci saat ərzində yolun dörddə birini, üçüncü saat ərzində isə qalan 5 km-ni qət etdi. Aşağıdakı ifadələrdən hansı turistin neçə kilometr yol qət etdiyini göstərir?

ა) $5 + 1:\left(\frac{1}{3} + \frac{1}{4}\right)$

ბ) $5 + 1:\left(\frac{1}{3} - \frac{1}{4}\right)$

გ) $5 : \left(1 - \frac{1}{3} - \frac{1}{4}\right)$

დ) $\frac{1}{3} + \frac{1}{4} + 5$

(3) **20.** Şirkətin üç sahibi aksiyaların satışından əldə olunan gəliri müvafiq olaraq 4:5:1 nisbətində öz aralarında böldülər. Eyni məbləğ şirkət sahibləri arasında 2:2:1 nisbətində bölünsəydi, onlardan biri 400 lari daha çox alacaqdı. Aksiyaların satışından əldə olunan ümumi məbləğ neçə lari olub?

Cavabınızı əsaslandırın.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(3) **21.** Şagirdlərə aşağıdakı işi təklif etdilər:

1) Yazın: I. 20 sm 8 mm neçə millimetrdir?

II. 40 t 60 kq neçə kiloqramdır?

III. 5 dəq 10 san neçə saniyədir?

2) Hesablayın: I. $57 + 22 + 8$ II. $86 - 28 - 8$

3) Fikirdə bir ədəd tutuldu. Əgər bu ədədə 28 əlavə edilsə, sonra isə ondan 84 çıxılsa, 120 alınar. Fikirdə hansı ədəd tutulub?

4) Nika balıqqulaqların sayının yarısını və əlavə olaraq birini Eleneyə, qalan 5 balıqqulağını isə Erekleyə verdi.Nikanın cəmi neçə balıqqulağı var idi?

5) Düzbucaqlı 3 kvadrata şəkildə göstərildiyi kimi bölünmüşdür. Bölünmə nəticəsində alınan hər bir balaca kvadratın perimetri 8 sm-ə bərabərdir. Bütöv düzbucaqlının perimetri nəyə bərabərdir?



Növbəti səhifədə şagirdlərdən birinin hazırladığı iş verilmişdir:

1) I. 208 mm  II. 4060 kq  III. 510 san

2) I. $57 + 22 + 8 = 57 + (22 + 8) = 57 + 30 = 87$

II. $86 - 28 - 8 = 86 - (28 - 8) = 86 - 20 = 66$

3) $84 - 28 = 56$, $120 - 56 = 64$. Fikirlərində tutduqları ədəd 64-dür.

4) Nikanın $2 \cdot (5 - 1) = 8$ balıqqulağı var idi.

5) $8 : 4 = 2$ sm, uzunluğuna 3 balaca kvadrat, eninə isə 2 balaca kvadrat sığışacaq, perimetri $2 \cdot (3 + 2) = 10$ sm-dir.

- Şagird tərəfindən buraxılmış hər bir səhvi göstərin və düzgün şəkildə yazın.

# Təbiət

(1) **22.** İllüstrasiyada verilmiş heyvanların ümumi əlamətləri nədir?



ა) Yumurta ilə çoxalma qabiliyyəti;

ბ) Yerdəyişmə üsulu;

გ) Yayılma arealı;

დ) Buynuz mənşəli örtük.

(1) **23.** Külək vasitəsilə tozlanan çiçəklər hansı latın hərfi ilə qeyd olunub?




ა) B və D;

ბ) B və C;

გ) C və D;

დ) A və C.

(1) **24.** Şəkildəyişmiş gövdə hansı latın hərfi ilə qeyd olunub?




ა) A və B;

ბ) A və C;

გ) B və C;

დ) B və D.

(1) **25.** Xəstəlik törədənin daşıyıcısıdır:

ა) Çəyirtkə;

ბ) Ağcaqanad;

გ) Avropa danaburnu;

დ) Mənənə.

(1) **26**. Mürəkkəb həyat dövrü var:

I – Tısbağanın II – Çəyirtkənin III – Toyuğun IV – Qurbağanın

ა) I və II;

ბ) I və III;

გ) II və III;

დ) II və IV.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **27.** İsti suyu qazana tökdülər və şəffaf qapaqla bağladılar. Tezliklə qapaqda içəri tərəfdən su damcıları əmələ gəldi. Damcıların əmələ gəlməsinə hansı hadisə (hadisələr) səbəb oldu?



ა) Yalnız kondensasiya;

ბ) Yalnız buxarlanma;

გ) Buxarlanma və kondensasiya;

დ) Buxarlanma və diffuziya.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **28.** Məktəbə doğru gedən şagird yolda dəftərini evdə qoyduğunu xatırladı. O, evə qayıtdı və sonra yenə məktəbə doğru getdi. Aşağıdakı qrafiklərdən hansı şagirdin məktəbə gəliş anına qədər t vaxtına görə evdən x məsafəsini göstərə bilər?




I




II

ა) Yalnız I;

ბ) Yalnız II;

გ) Heç biri;

დ) Hər ikisi.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **29.** Sinoptik hansı fotoda göstərilmişdir?













1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **30.** Xəritə fraqmentinə əsasən, hansı mülahizə düzgündür?




**Miqyas** 1:10 000

ა) 1-ci və 2-ci torpaq sahəsi çayın sağ sahilində yerləşir;

ბ) Meşə quyudan şimalda yerləşir;

გ) Tsivi çayının sol sahili boyunca yarğan var;

დ) Xəritədə qarışıq meşə verilmişdir.


1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **31.** Xəritədə dörd müxtəlif gəminin yerləşdiyi yer verilmişdir. Qara dənizə ən qısa marşrutla hansı gəmi daxil ola bilər?




ა) 1
ბ) 2
გ) 3
დ) 4


1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **32.** Fotoşəkildə göstərilən heyvan xəritədə verilən yerlərdən hansında yaşayır?






ა) 1
ბ) 2
გ) 3
დ) 4


1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **33.** Antropogen landşaft hansı fotoda göstərilmişdir?













1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

# Akademik qabiliyyət

## Oxunmuş mətnin dərk edilməsi

*Mətni diqqətlə oxuyun və düşünün. Hər sualın ehtimal olunan cavablarından verilən mətnə görə düzgün variantı seçin.*
*Bu və ya digər sualla tanış olduqdan sonra suala cavab vermək üçün mətnə qayıtmaq, müvafiq parçanı yenidən oxumaq və suala keçmək lazım gələ bilər. Bunu mətnin, eləcə də hər sualın sonunda verilmiş müvafiq qeydi "basmaqla" asanlaşdıra bilərsiniz.*

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

I Təhsildə qeyri-bərabərlik təhsil imkanları, resursları və müvafiq olaraq, nəticələr baxımından müxtəlif qruplar arasında mövcud olan fərqlərə deyilir. Qeyri-bərabərlik iqtisadi, sosial, gender, etnik və ya digər amillərdən asılı olaraq müxtəlif istiqamətlərdə özünü göstərə bilər. Məsələn, aztəminatlı ailələrdən olan uşaqların yüksək keyiffətli məktəblərə, müəllimlərə, texnologiyaya və əlavə təhsil resurslarına əlçatanlığı kimi təhsil imkanları çox vaxt daha az olur. Bu səbəbdən uğur qazanmaqda çətinlik çəkə bilərlər. Həmçinin bəzi mədəniyyətlərdə mühafizəkar gözləntilər və qadınların cəmiyyətdəki rolu ilə bağlı stereotipik inanclar səbəbindən qızların təhsil almaq imkanları məhduddur.

II Təhsildə qeyri-bərabərlik bilavasitə insan kapitalı indeksi ilə əlaqəlidir. Bu indeks ölkə əhalisinin təhsil və sağlamlıq vəziyyətinin keyfiyyətinin qiymətləndirilməsini əks etdirən göstəricidir. Əgər hər hansı bir ölkənin əhalisi keyfiyyətli təhsil və səhiyyə xidmətləri alırsa, onun "insan kapitalı" yüksəkdir. Bu o deməkdir ki, həmin ölkənin vətəndaşları öz imkanlarını reallaşdırmaq üçün yaxşı şəraitə malikdirlər və bu isə müvafiq olaraq ölkə iqtisadiyyatının gücünü müəyyən edir.

III Belə bir inanc mövcuddur ki, kifayət qədər çox çalışsan, bütün məqsədlərinə çatacaqsan. Nailiyyət bacarıqların, motivasiyanın və zəhmətin nəticəsidir. Müvafiq olaraq, sosial mənşəyindən asılı olmamalıdır. Lakin sosial-iqtisadi vəziyyəti aşağı olan ailələrin uşaqları qeyri-bərabər şəraitə görə çox vaxt öz imkanlarını reallaşdıra bilmirlər. Aztəminatlı ailələr çox vaxt övladlarının təhsilinə böyük sərmayə qoya bilmirlər ki, bu da aşağı keyfiyyətli təhsil və nəticədə bu şagirdlərin əmək bazarında imkanlarının aşağı olması ilə nəticələnir. Bu, sosial-iqtisadi cəhətdən həssas qrupları yüksək səviyyəli təhsilə malik olma ehtimalının daha az olduğu pis dövranı qapalı qrupa çevirən qeyri-bərabərsizliyi yaradır.

Suallara keçid: 34 35 36 37 38

**1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39**

IV Təhsildə qeyri-bərabərlik məsələsi ilə maraqlanan fransız tədqiqatçısı Sebastian Qudo fərqli aspektə diqqət yetirib. Onun araşdırmasına əsasən, qeyri-bərabərlik erkən yaşlarda başlayır. Sosial mənsubiyyət uşağın dərs zamanı verdiyi töhfəyə, həmçinin uşaqların özlərini və başqalarını necə qiymətləndirməsinə təsir göstərir. Məlum olub ki, aşağı sosial təbəqədən olan ailələrin uşaqları yuxarı sosial təbəqədən olan həmyaşıdlarına nisbətən qrup müzakirələrində daha az iştirak edirlər. Bu vəziyyətin uşaqların dil bacarıqlarının olmaması və özünüifadə edə bilməməsi ilə izah edilməməsi mühümdür Aşağı təbəqədən olan ailələrdə adi olan normalar məktəbdə mövcud olan normalara ziddir. Bu cür ailədən olan uşaqların özünüifadə formaları və mədəni təcrübələri sinifdə daha az dəyərləndirilir.Həmin uşaqlar özlərini başqaları ilə müqayisə edir, fərqliliklər, ev və məktəb arasında mədəni uyğunsuzluqlar və onlara qarşı mənfi gözləntilər aşkar edirlər ki, bu da başqaları tərəfindən mühakimə olunmaq qorxusunu gücləndirir və nəticədə özlərini ifadə etməkdən boyun qaçırırlar.

V Təhsilin erkən mərhələsində yaradılan qeyri-bərabər tədris mühiti təhsil karyerası boyu nailiyyət fərqləri üçün mühüm əsaslardan biridir.

Suallara keçid: 34 35 36 37 38

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **34.** Birinci abzasda verilən misallar təhsildə qeyri-bərabərliyin hansı iki səbəbinin göstəricisidir?

ა) İqtisadi və Etnik;

ბ) Etnik və Gender;

გ) Sosial və Etnik;

დ) İqtisadi və Gender.

Mətnin I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **35.** Sadalananlardan hansında təhsildəki qeyri-bərabərlik ilə insan kapitalı indeksi arasındakı əlaqə düzgün təqdim olunmuşdur?

ა) Yüksək gəlirli ölkələrdə birmənalı şəkildə əlçatan təhsil və yüksək insan kapitalı indeksi var;

ბ) Əgər ölkədə yüksək insan kapitalı indeksi varsa, bu o deməkdir ki, bu ölkədə aşağı keyfiyyətli təhsil almış şəxs yoxdur;

გ) Əgər insanlar təhsil alarkən müxtəlif şəraitə malik olsalar, onların imkanları az inkişaf edər və buna uyğun olaraq ölkədə insan kapitalı da zərər görər;

დ) Yoxsulluq insanların aşağı keyfiyyətli təhsilini şərtləndirir, lakin bunu keyfiyyətli səhiyyə ilə kompensasiya etmək olar, buna görə də insan kapitalına zərər dəyməyəcək.

Mətnin I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **36.** Mətnin üçüncü abzasında oxuyuruq: "Nailiyyət bacarıqların, motivasiyanın və zəhmətin nəticəsidir**".** Sadalananlardan hansı bu fikri **<u>şübhə altında qoyur</u>** ?

ა) Ana dili ilə məktəbin tədris dili üst-üstə düşməyən şagirdlərin əksəriyyətinin akademik göstəriciləri yüksək deyil;

ბ) Sistematik olaraq dərs buraxan şagirdlər akademik uğur qazana bilmirlər;

გ) Tapşırıqları sistemli şəkildə yerinə yetirmək vərdişi formalaşmayan şagirdlər akademik uğur qazana bilmirlər;

დ) Səbirli olmaq qabiliyyəti adekvat formalaşmayan şagirdlərin əksəriyyəti akademik uğur qazanmır.

Mətnin I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **37.** Aşağıdakılardan hansı mətnin dördüncü abzasında təsvir edilən tədqiqatın nəticələrinə əsaslanaraq çıxarılan düzgün nəticədir?

ა) Dil səriştəsi və özünüifadə bacarıqları baxımından uşaqlar arasındakı fərqlər onların təlim fəaliyyətlərinə cəlb edilməsinə təsir edir, bu da, müvafiq olaraq, təhsilin əlçatanlığı baxımından maneə yaradır;

ბ) Tədris mühitində öz fərqliliyini dərk etməsi və dəstəyin olmaması uşaqların özünəinamına mənfi təsir göstərir ki, bu da onların imkanlarını reallaşdırmasına mane olur;

გ) Uşaqlar arasındakı sosial mənsubiyyət fərqləri ilk növbədə onların müxtəlif mədəni təcrübələri ilə izah olunur ki, bu da qeyri-bərabər təlim mühiti yaradır;

დ) Uşaqların özünüqiymətləndirməsi təlim mühitinə uyğunlaşmaq üçün maneə ola bilməz; qeyri-bərabər təhsil mühiti məktəbdəki bütün uşaqlar üçün eyni normaları yaradır.

[Mətnin I səhifəsinə qayıdış]

[Mətnin II səhifəsinə qayıdış]

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **38.** Aşağıdakılardan hansı verilmiş mətnin məqsədi **<u>deyil</u>**?

ა) Bizi təhsildəki qeyri-bərabərliyin müxtəlif səbəbləri ilə tanış etmək;

ბ) Təhsildəki qeyri-bərabərlik və ölkənin iqtisadi gücü arasındakı əlaqənin əhəmiyyətini vurğulamaq;

გ) Müasir araşdırmanın nəticələrinə əsasən təhsildəki qeyri-bərabərliyin aradan qaldırılması yollarını müəyyən etmək;

დ) Bu və ya digər amilin təhsildəki qeyri-bərabərliyə necə və hansı yolla təsir etdiyini izah etmək.

Mətnin I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(9) **39. Analitik yazı**

Tapşırıqda verilən iki bir-birinə zidd müddəa ilə diqqətlə tanış olun. Onlardan birinin lehinə seçim edin. Seçiminizi əsaslandırmaq üçün arqumentlər gətirin və zidd olan müddəanı tənqidi olaraq qiymətləndirin.

a) Valideynlər uşaqların inkişaf prosesinə dəstək olmaq və təlim-tədris prosesinin keyfiyyətinin yaxşılaşdırılması üçün məktəb həyatında fəal şəkildə iştirak etməlidirlər.

b) Validevnin məktəb proseslərində iştirak etməsi pedaqoqun avtonomluğunu məhdudlaşdırır və uşaqlarda müstəqilliyin formalaşmasına mane olur.

Yazı işi,ən az, 120 sözdən ibarət olmalıdır.